# İSLAM DİNİNİN ƏXLAQA MÜNASİBƏTİ VƏ İSLAM ƏXLAQININ SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

***Elvüsal MƏMMƏDOV,***
*AMEA-nın akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutunun Din və ictimai*
*fikir tarixi şöbəsinin aparıcı elmi işçisi,*
*fəlsəfə üzrə fəlsəfə doktoru,*
*Aİİ-nin Dillər və ictimai fənlər kafedrasının dosenti,*
*elvusal.mammedov@gmail.com*

***AÇAR SÖZLƏR:*** *əxlaq, İslam, dəyər.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *мораль, Ислам, ценности.*
***KEY WORDS:*** *morality, Islam, value.*

İslam əxlaqı dedikdə biz bu dinin müqəddəs mətnlərində göstərilmiş prinsip və normaları nəzərdə tuturuq. Bu mənada İslam əxlaqının ümumi təsvirini aşağıdakı kimi vermək mümkündür:

**İslamda əxlaq peyğəmbərlik institutunun funksiyaları arasında göstərilir**.

Hədislərin birində Həzrət Peyğəmbərin (s) dilindən deyilir: "Şübhəsiz ki, mən gözəl əxlaqı tamamlamaq üçün göndərilmişəm"[1].

Bu o mənaya gəlir ki, İslam əxlaqda müsbət ənənə və təcrübəni inkar etmir.

**Əxlaq İslam nöqteyi-nəzərində ibadətlə vəhdətdə götürülür, ibadət əməllərinin effektivliyi əxlaqla şərtləndirilir**.

Mövcud dini mətn – faktların təhlili göstərir ki, əxlaq və ibadət, o cümlədən iman bir-birini tamamlayan elementlərdir. Məsələn, namazdakı məqsədi izah edən ayələrin birində qeyd olunur ki, namaz çirkin və pis əməllərdən çəkindirir[1]. İbadətin qəbul edilməsi şərtlərindən bəhs edən hədisdə isə Allahın dilindən deyilir ki, O, namazı təkcə Onun qarşısında baş əyən, Onun bəndələrinə yamanlıq etməyən, gecəni günahla keçirməyən, yoxsullara, yolçulara, dul və kimsəsizlərə mərhəmət göstərən şəxslərdən qəbul edəcəkdir [1, s.14].

Digər ibadət formaları da Quran və hədislərdə əxlaq dəyərləri ilə əlaqələndirilir. Məsələn, göstərilir ki, zəkat adi vergi növü olmayıb, rəhmdillik, mərhəmət hissi yaradan, siniflərarası inam və sevgi formalaşdıran vasitədir. Həmçinin sədəqə təkcə maddi kömək forması kimi deyil, daha geniş mənada nəzərdən keçirilir. Bu vaxt Məhəmməd peyğəmbərin (s) belə bir sözünə istinad olunur ki, bir müsəlmana gülümsəmək, yaxşılığa çağırmaq, pislikdən çəkindirmək, yolda qalanlara yol göstərmək, yol üzərindən maneəni, hətta tikanı götürmək, bir müsəlmanın

1 Hədisi İmam Malik rəvayət etmişdir.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

öz qabından din qardaşının qabına su tökməsi, pis nəzərlə baxanlara xoş gözlə baxmaq da sədəqə hesab edilir.

Əxlaqi keyfiyyət və davranışlarla oruc ibadətinin əlaqəsi haqqında bizə gəlib çatmış dini mətnlərdə oxuyuruq ki, oruc təkcə yemək və içməkdən müvəqqəti imtina olmayıb, nəfsi mənfi istək və şəhvətdən məhrum etməkdir; oruc tutanlar yalan danışmağı, saxtakarlıqla davranmağı tərgitməlidirlər, əks halda, onların ac-susuz qalmaqlarına Allahın ehtiyacı yoxdur; oruc yemək-içməyi tərgitmək deyildir, əksinə, yaman danışmaqdan çəkinməkdir və s.

Nəhayət, İslamda həcc ibadəti formal ayinlərin məcmusu hesab edilmir, mücərrəd və sırf dini ayin kimi nəzərdən keçirilmir. Quranda göstərilir ki, həcc ibadətini icra edən zəvvar söyüş söyməməli, pis sözlər danışmamalı, dava-dalaş salmamalıdır[2].

Yuxarıdakı qeydlərdən bu nəticə hasil olur ki, İslamda başlıca ibadət formaları əxlaq və əxlaq dəyərləri ilə qırılmaz vəhdət əmələ gətirir.

**İslam dininə insanı günahsız hesab edən, yaxud ona yarımmələk gözü ilə baxan ifrat idealist nöqteyi-nəzər xarakterik deyildir**.

İslamın ana mənbələrində icrası qeyri-mümkün əxlaq normalarına təsadüf edilmir. Ümumiyyətlə, İslamın əxlaq normaları mötədil məzmunu ilə seçilir. Quran dünyagörüşündə insan mürəkkəb canlı olaraq nəzərdən keçirilir, onun intellektdən, bioloji, mənəvi-psixoloji elementlərdən təşəkkül tapdığı deyilir. Bu səbəbdən onda heyvani instinktlər də, mələk mənəviyyatı da özünü göstərə bilər, bu, onun əxlaqi prinsiplərə əməl edib-etməməsindən asılıdır. İnsana iki yol göstərilmişdir və o bu iki yoldan birini seçmək üçün yaradılmışdır: o ya rəbbini tanıyıb şükür edən bəndə olacaq, ya da yaradanını inkar edərək nankorluq göstərəcəkdir. Bu səbəbdən onun vəzifəsi mənən saflaşıb təmizlənmək üçün nəfsi ilə mübarizə aparmaq, tərbiyə mümarisələrini icra etməkdir [2, s.18-20].

**İslamda əxlaq Quran dünyagörüşünün prinsiplərindən biri kimi göstərilir**.

Bu o deməkdir ki, bəşər övladı ali və əxlaqi məqsədlər üçün yaradılmışdır. Quranda bu məqsədlər insanın diqqətinə çatdırılır. Quranın yolgöstərənliyi onun üçündür ki, insan şüurlu şəkildə və məsuliyyətlə düşünüb qərar versin. Yəni insan hansı yolla getməli, ikisindən hansını seçməlidir: islah və abadlaşdırmanı, yoxsa azğınlıq və fəsadı? Əxlaq və mənəviyyat bu baxımdan davranışlara istiqamət verir [3, s.34].

Qeyd edək ki, müasir müəlliflər Quran dünyagörüşünün prinsipləri arasında tövhid, xəlifəlik (varislik), ədalət və mötədillik, azadlıq, məsuliyyət, məqsədyönlülük, əxlaq, şura (məsləhətləşmə), elmi universallıq, ümumbəşərilik, sülh, islahatçılıq, abadlaşdırma və gözəlliyi qeyd edirlər [3, s.29-44].

Müsəlman müəlliflər bildirirlər ki, **əxlaq insanın Allah tərəfindən yaradılmasında məqsəd kimi çıxış edir**. Məsələn, Fələstin əsilli amerikalı mütəfəkkir İsmayıl Raci Faruqi qeyd edir ki, Allah insanı öz əməlləri ilə mənəvi tərəfini (əxlaqını) isbatlasın deyə yaratmışdır [4, s.26].

2 Bax: Qurani-Kərim, "əl-Ənkəbut" surəsi, 45-ci ayə.

Qərbdə daha çox müdafiə edilən müasir nöqteyi-nəzərdən fərqli olaraq, **İslamda əxlaq inancdan, xüsusən Allah inancından əlahiddə götürülmür**. Allah inancı fərdin mənəvi həyatını, şəxsi və ictimai davranışlarını tənzimləyən mühüm amil kimi çıxış etdiyindən əxlaqın effektivliyi və qorunub-saxlanmasında əhəmiyyətli dərəcədə rol oynayır [4, s.22-29]. Macar şərqşünası İ.Goldziherin (1850-1921) bildirdiyi kimi, cahiliyyə dövründə ərəb qəbilələrinin həyat tərzi, adət-ənənələri cəmiyyət formalaşdırmaq üçün münasib olmamışdır. Onların ibtidai və mənasız bütpərəst inancı ali əxlaq dəyərlərinin yaranmasına maneə törətmişdir. Bu səbəbdən İslam dini ümumbəşəri, mütləq və ümumi məzmuna sahib əxlaqi quruluş təsis edərkən bu cür əxlaq sisteminin ən mühüm zəmanətçisi kimi hər şeyi bilən, hər şeyə qadir, çox rəhimli, amma cəzası da şiddətli olan ali Allah təsəvvürü formalaşdırmışdır. İslam insanlara aşılamışdır ki, Uca Allahın təsis etdiyi ümumi və qəti qaydaların həyatın hər sahəsi üçün sarsılmaz hökmlər olduğuna inansınlar [5, s.25].

**İslamda əxlaq və mənəvi dəyərlər nəfsi tərbiyə – təzkiyə ilə əlaqəlidir**.

Bəşər övladı hər şeydən əvvəl özünü tərbiyə etməli, nəfsini paklamalıdır. Bu səbəbdən İslam dinində tərbiyəvi məqsədlərlə hakim dəyərlər vəhdətdə götürülür, bir-biri ilə həmhüdud sahələr kimi göstərilir. Xüsusi şəkildə qeyd olunur ki, ən ali qayə insanı hər iki dünyada xoşbəxt etməkdir.

Müasir müəlliflər İslamda əxlaq məsələlərindən danışarkən qeyd edirlər ki, mənəvi tərbiyə işi düzgün qurulmazsa, şəxsiyyətin formalaşmasında axsamalar baş verə bilər [6, s.136]. İslamın əsas dəyərləri və ali məqsədlərinin ayaqda qalması möhkəm intellekt və dürüst mənəviyyatla şərtlənir: "Fəlsəfənin haqq dəyərləri, gözəllik dəyərləri adlandırdığı şeylər – bütün bunlar mənən tərbiyə edilmiş insanların olmadığı, intellekt və mənəvi baxımdan tərbiyələnmiş şəxsiyyətlərin yetişmədiyi mühitdə reallaşa bilməz" [6, s.137].

İslamın bu məqsədlə təqdim etdiyi tərbiyə üsulu insanlarda ali məqsədlər baxımından qeyb aləminə, real dünyaya, cəmiyyətə münasibətin əsaslarını formalaşdırmaqla başlanır. Bu tərbiyə digər ali dəyərlərlə: tövhid, varislik və abadlaşdırma işi ilə vəhdət təşkil edir.

Həzrət Peyğəmbər (s) tərbiyə işinin düzgün qurulması üçün, hər şeydən əvvəl, cəmiyyətdə bütpərəstlik ənənəsini, dünyagörüşünü ləğv etmiş, tək Allaha iman və ibadət prinsipinə əsaslanan əxlaq və mənəviyyat tərbiyəsi sistemi yaratmışdır. Onun bu tərbiyə sistemində göstərilir ki, var-dövlət, əsil-nəcabət deyil, məhz təqva – Allah qarşısında hərtərəfli məsuliyyət daşımaq fərdi və ictimai tərəqqinin, üstün insan olmağın şərti kimi çıxış edir. Əxlaqın birbaşa mənəvi tərbiyə işi ilə əlaqələndirilməsi Allahın yaratdığı digər canlılara qarşı mərhəmətli olmağı, sosial münasibətlərdə dürüstlük, etibar, təmənnasız sevgi və fədakarlığı, səmimiyyət və yaxşı niyyətli olmağı təmin edə bilər. Bunun üçün həm də pis hərəkət və mənfi davranışları tərbiyə etmək lazım gələcəkdir ki, bu da hərtərəfli, balanslaşdırılmış tərbiyə işini zəruri edir.

**Ümmət və qardaşlıq prinsipləri**

Yuxarıda göstərilənlərlə yanaşı, mənəvi dəyərlər, yaxud əxlaqın praktik təzahürü üçün İslamda **ümmət və qardaşlıq prinsiplərindən** çıxış edilir. İslam dini ictimai dəyərlərin formatı

və məzmununun müəyyənləşdirilməsi baxımından inqilabi təbəddülata imza atmışdır. Belə bir təbəddülatın konkret təsviri ondan ibarətdir ki, ictimai münasibətlərdə milli-irqi, yaxud sinfi elementlər əsas götürülmür, əxlaq, mənəviyyat və Allah qarşısında məsuliyyət şüuru (təqva) başlıca müəyyənedici məsələlər hesab olunur. İslamın müqəddəs mətnlərində göstərilir ki, bütün insanlar eyni ata və anadan törəmişlər; onlar şəxsi və irqi zəmində üstünlük qazanmaq üçün deyil, bir-biri ilə tanış olmaq, bir-birini tanımaq üçün mövcuddurlar; irqi və anadangəlmə müxtəlifliklər əxlaqi-mənəvi fonda əriyib yox olur; üstünlük ancaq mənəvi keyfiyyətlərdə özünü göstərə bilər. İrqi-sinfi bərabərsizliyin qeyri-məqbul hesab edildiyi İslam nöqteyi-nəzərində insanların birliyi və həmrəyliyinin imana, əxlaqa, mənəvi dəyərlərə əsaslanan formaları: ümmət və qardaşlıq daha qabarıq görünür. Aidiyyəti ayə və hədislərin təhlili belə bir nəticə doğurur ki, İslam dini ümmət və qardaşlıq institutunun üzvlərinə fərdi və ictimai əxlaq öhdəlikləri yükləyir, daxili münasibətləri tənzimləyən dəyərlər sistemi təqdim edir. Məsələn, İslamın ana mənbələri və Peyğəmbər təcrübəsinə nəzər salsaq, görəcəyik ki, qardaşlıq prinsipinin nəzəri və praktik baxımdan əsaslandırılmasında fərdi və ictimai əxlaq dəyərləri arqument bazası seçilir. Ayə və hədislərdən məlum olur ki, möminlər qardaşdırlar[3]; müsəlmanlar digər müsəlmanlar arasında baş verən anlaşılmazlıq, mübahisə və münaqişələri aradan qaldırmalıdırlar[4]; müsəlmanlar bir-birini lağa qoymamalı, xoşagəlməz adlarla çağırmamalıdırlar;[5] bir-birinin ayıblarını axtarmamalı, qeybətini etməməlidirlər[6] və s. Həmçinin İslam təlimlərində qardaşlıq sevgi, rəğbət və mərhəmət insanın bədən üzvlərinə oxşadılır və göstərilir ki, "bu bədənin bir əzası xəstələnib şikayət edərsə, digər əzalar da qızdırma və yuxusuzluğa düçar olar"; müsəlman müsəlmanın qardaşıdır; ona zülm etməməli, ehtiyacını ödəməli, kədərinə ortaq olmalıdır. Xülasə, Quranda "Möminlər ancaq qardaşdırlar" şüarı altında hökm təsis edilmiş və bu hökmün zəruri etdiyi əxlaqi-humanist vəzifələr müəyyənləşdirilmişdir. Hədislərdə də qardaşlıq mövzusuna əhəmiyyət verilmiş, bu qardaşlığa dair hüquq və vəzifələr, dəyər və qaydalar təfsilatı ilə işlənib hazırlanmışdır.

İslam əxlaqı özünəməxsusluğu ilə yanaşı, həm də kosmopolitdir, ümumbəşəridir. Məsələn, haqq, ədalət və bərabərlik dəyərlərini İslam təsdiqləməklə yanaşı, həm də onlara xüsusi çalarlar qatmışdır.

İslamda əxlaq, həm də niyyət institutu ilə birlikdə öyrənilir. "Həqiqətən, əməllər niyyətlərə görədir" hədisinə əsasən, niyyət əməllərə, davranışlara alilik, müsbətlik qazandırır:

"İslam davranışların kökündə yatan niyyətlərə, stimul və emosiyalara böyük əhəmiyyət verir. İslama görə, bir işin (davranışın) dəyəri, hər şeydən əvvəl, ona təşviq edən amillərin "təbiət"indən asılıdır. Bəzən insan hədiyyə verməklə qəlbləri qazanmağa çalışır. Bəzən də hədiyyəni verir ki, əvvəllər ona yaxşılıq etmiş kəsə öz şükranlığını ərz etsin. Hər iki hal – müsbət də, mənfi də olsa, – psixoloqların dediyi kimi, comərdlikdir. Və bu comərdliyi fərdin mənlik şüuru doğurur. Ancaq İslamda bu davranış o halda xeyirxahlıq sayılır ki, nəfsi istəklərdən uzaq olsun, sırf Allahın razılığı əsas götürülsün" [1, s.98].

3 Bax: Qurani-Kərim, "əl-Bəqərə" surəsi, 198-ci ayə.

4 Bax: Qurani-Kərim: "əl-Hücurat" surəsi, 10-cu ayə.

5 Bax: Qurani-Kərim: "əl-Hücurat" surəsi, 10-cu ayə.

6 Bax: Qurani-Kərim: "əl-Hücurat" surəsi, 11-ci ayə.

Yuxarıdakı iqtibasdan da göründüyü kimi, İslamın müqəddəs mətnlərində insanı mənən tərbiyə edən davranış və hərəkətlərin əsl dəyər statusu qazanması üçün həm də təmiz niyyət – Allahın razılığını qazanmaq məqsədi tələb olunur[7].

İslam dinində qarşıya qoyulan məqsəd budur ki, ali dəyərlər qorunub-saxlanılsın, heç bir saxta niyyətə alət edilməsin. Ona görə də hər hansı işi Allah naminə etmək həmin işin fəzilət, xeyirxahlıq hesab edilməsinin şərti kimi göstərilmişdir. Bu din hətta şəxsi mənfəətin saxta niyyətlərlə "örtülməsi"nin də əleyhinə çıxış edir.

Davranış və əməllərin görünüşdə yaxşı, yaxud pis kimi təsnif edilməzdən əvvəl arxa planda nəyin bizi bu işə sövq etdiyini müəyyənləşdirən meyar rolunu oynaması baxımından niyyət İslamda olduqca mühümdür [7, s.56].

İslamda əxlaq və mənəviyyat müsəlman şəxsiyyətinin, inanclı insan modelinin əsas göstəricisi kimi təqdim edilir. Bu mövzuda bizə gəlib çatmış hədislərin ümumi məzmunu budur ki, ən gözəl əxlaqa sahib olanlar Allahın çox sevimli bəndələridir[8]; gözəl əxlaq insana verilən ən xeyirli şeydir[9]; ən yaxşı müsəlman – əxlaqı ən gözəl olandır[10]; əxlaqı ən gözəl olanın imanı da kamildir[11]; ən gözəl əxlaqa sahib olan müsəlman Peyğəmbərin nəzərində sevimli olub, Qiyamət günü ona daha yaxın olacaqdır; Qiyamət günü möminin əməl tərəzisində ən ağır gələn şey gözəl əxlaqdır[12]; möminin şərəfi dini ilə, mürüvvəti ağlı ilə, qədir-qiyməti isə əxlaqı ilə ölçülür[13] və s.

Yuxarıdakı arqumentlər göstərir ki, İslam dinində əsas diqqət təkcə ibadətə, ayrı-ayrı ayinlərə deyil, həm də əhəmiyyətli dərəcədə əxlaq məsələlərinə də verilir. İslam üçün əxlaq mühümdür, çünki dünya və axirətdə müsəlman fərdin yerini müəyyən edir.

İslam əxlaqı praktikliyi, əməli olmağı ilə seçilir, nəzəri və mücərrəd müddəalarla kifayətlənmir, tərbiyə işi və nümunəviliyin əhəmiyyətini qabardır. Quran mətnləri və Peyğəmbər təcrübəsinin təhlili belə bir müddəa meydana gətirir ki, təkcə nəzəri biliklərlə, formal əmr və qadağalarla fərdi və ictimai müstəvidə əxlaq dəyərlərini bərqərar etmək mümkün deyildir: "Könüllərə fəzilət aşılamaq üçün quru şəkildə "bunu et", "onu etmə" demək kifayət etmir. Ədəb-ərkanın səmərəliliyi illərlə aparılan tərbiyə işi və davamlı aşılama (təlqin) tələb edir" [1, s.24].

Dəyərlərin möhkəmlənməsi və tərbiyə işinin özünü doğrultması üçün gözəl nümunənin rolunu kimsə dana bilməz. Nümunəvi olmayan şəxslərin apardıqları tərbiyə işinin səmərəli nəticə verməsi sual altındadır. Mənfi xarakterə sahib şəxslər ətrafda xoş təəssürat yaratmırlar. Həzrət Peyğəmbər (s) haqqında Quranda deyilir ki, o, gözəl əxlaq mücəssəməsi olmuşdur[14]; əgər qaba və kobud olsaydı, insanlar onun çağırışına hay verməz, ətrafından dağılışıb gedərdilər[15].

7 Bax: Qurani-Kərim: "əl-Hücurat" surəsi, 12-ci ayə.

8 Bax: Qurani-Kərim, "əl-İnsan" surəsi, 8-9-cu ayələr; "əl-Leyl" surəsi, 18-21-ci ayələr.

9 Hədisi Təbərani rəvayət etmişdir.

10 Hədisi İbn Hibban rəvayət etmişdir.

11 Hədisi Tirmizi rəvayət etmişdir.

12 Hədisi Təbərani rəvayət etmişdir.

13 Hədisi Əhməd ibn Hənbəl rəvayət etmişdir.

14 Hədisi Hakim rəvayət etmişdir.

15 Bax: Qurani-Kərim, "əl-Əhzab" surəsi, 21-ci ayə; "əl-Qələm" surəsi, 4-cü ayə.

Deməli, ideya və təlimlərin cəmiyyətin əsas parçasına çevrilib səmərə verməsi üçün bu işlə məşğul olan kimsələrin, qurumların nümunəviliyi başlıca şərt kimi özünü göstərir.

**Nəticə**

İslam əxlaqı bütövlükdə immanent xüsusiyyətə malikdir. Bu dinin əxlaq sistemi, əxlaq təlimi və normaları bütövlükdə onun özünə aiddir, müqəddəs dini mətnlərində – ayə və hədislərdə öz əksini tapmışdır. Ümumiyyətlə, Orta əsr müsəlman dünyasında əxlaq probleminin nəzəri və praktik tərəfləri ilə əlaqədar olaraq, iki ayrı məktəb, yaxud istiqamət meydana çıxmışdır. Qədim yunan fəlsəfəsindən təsirlənmiş birinci məktəb əxlaq mövzusunun nəzəri aspektləri ilə məşğul olur, əsasən, fəlsəfi paradiqma və məfhumlardan çıxış edirdi. İkinci istiqamətin davamçıları isə əməli əxlaq mövzusuna dair kitablar qələmə almış, İslam dininin əməli əxlaq təlimi ilə kifayətlənmişdilər. Bu baxımdan İslam əxlaqı məfhumu müsəlman rasional fikrindəki əxlaq elmi anlayışından fərqlənir. Birincisi İslama xas əxlaqi keyfiyyətləri, davranışları ifadə edirsə, ikincisi müsəlman rasional fikrində əxlaq probleminə münasibəti və bir fenomen kimi onun özünü öyrənir.

## ƏDƏBİYYAT


1. Məhəmməd Qəzali. Müsəlman əxlaqı / tərcümə edən: Elvüsal Məmmədov. Bakı: 2012.
2. Yusif əl-Qərdavi. İslam mötədilliyi və əsas təzahür formaları / tərcümə edən: Elvüsal Məmmədov. Bakı: 2009.
3. Əbdülhəmid əbu Süleyman. Mədəni Quran dünyagörüşü / tərcümə edən: Elvüsal Məmmədov. Bakı: 2017.
4. İsmayıl Raci Faruqi. Tövhid: İslam mədəniyyətinin əsası / tərcümə edən: Elvüsal Məmmədov. Bakı: 2018.
5. Mustafa Çağırıcı. İslam Düşüncesinde Ahlak. İstanbul: “Dem Yayınları”, 2006.
6. Taha Cabir əl-Ülvani. Tövhid, tərbiyə və mədəniyyət / tərcümə edən: Elvüsal Məmmədov. Bakı: 2018.
7. Müfit Selim Saruhan. İslam Düşüncesinde Ahlak İlmi // “Eskiyeni”, say 28, 2014.

Эльвюсал Мамедов

## ОТНОШЕНИЯ ИСЛАМА К НРАВСТВЕННОСТЬЮ И ХАРАКТЕРИСТИКИ ИСЛАМСКОЙ НРАВСТВЕННОСТИ

### РЕЗЮМЕ

Исламская мораль полностью имманентна. Моральная система, нравственные учения и нормы этой религии принадлежат ей в целом и отражены в священных религиозных текстах - стихах и хадисах. В целом проблема морали в средневековом мусульманском мире изучалась двумя разными школами или дисциплинами. Под влиянием древнегреческой философии первая школа занималась теоретическими аспектами морали и философскими парадигмами и концепциями, в то время как последователи второй школы писали книги по практической морали и довольствовались практическими моральными учениями ислама. В то время как первая школа изучала отношение мусульман к проблеме морали в рациональном мышлении и ее предмету как феномену, вторая выражала моральные качества и поведение, присущие исламу.

Elvusal Mammadov

## ATTITUDE OF ISLAM ON MORALITY AND CHARACTERISTICS OF ISLAMIC MORALITY

### SUMMARY

Islamic morality is entirely immanent. The moral system, moral teachings and norms of this religion belong to it as a whole, and are reflected in the sacred religious texts - verses and hadiths. In general, the problem of morality in the medieval Muslim world was studied by two different schools or directions. Influenced by ancient Greek philosophy, the first school dealt with theoretical aspects of morality, based on philosophical paradigms and concepts, while the followers of the second school wrote books on practical morality and were content with the practical moral teachings of Islam. At that time, as the first school studied the attitude of Muslims to the problem of morality in rational thought and its subject as a phenomenon, the second expressed moral qualities and behavior that belong to Islam.